COP29 Baku Azerbaijan

# COP29: Möhtəşəm tədbir, fəal lider mövqeyi

***Bu, ölkəmizin artan nüfuzunun təcəssümü, siyasi və diplomatik uğurunun növbəti ifadəsidir***

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan COP29-a ev sahibliyi etməklə iqlim dəyişmələrinə qarşı mübarizədə nümunəvi liderlik nümayiş etdirdi. COP konfransının regionda ilk dəfə Azərbaycanda təşkil olunması yüksək qiymətləndirilir. İrəli sürdüyü təşəbbüslərin məzmununa görə bu gün Cənubi Qafqazda sülhün təmin olunması üçün ölkəmiz kifayət qədər ciddi səy göstərir. COP29 gündəliyinə daxil olunmuş 14 böyük təşəbbüsdən biri də məhz sülhün, dialoqun və barışığın daha geniş şəkildə təbliği, iqlimlə bağlı fəaliyyət üçün bütün siyasi diqqəti və diplomatik səyləri səfərbər etmək məqsədi daşıyırdı. Qlobal əhəmiyyətli mövzularda beynəlxalq birliyin məsuliyyətli üzvü kimi daim ümumi işə töhfə verməyə çalışan ölkəmizə qarşı haqsız ittihamlar bizi yolumuzdan döndərə bilməzdi. COP29 öncəsi və tədbir zamanı bəzi Qərb ölkələri tərəfindən Azərbaycana qarşı iyrənc, qərəzli, açıq-aşkar düşmənçilik xarakteri daşıyan kampaniya aparıldı. Amma bütün bunların fonunda COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin növbəti diplomatik və siyasi uğuru oldu.

"Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu. Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək. Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq". Bu sözlər Azərbaycan Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında paylaşımında yer alıb. Dövlət başçısı qeyd edib ki, genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu. "Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutan Azərbaycan bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdı. Proses boyu inkişaf etməkdə olan ölkələrin, xüsusilə kiçik ada dövlətlərinin və ən az inkişaf etmiş dövlətlərin ehtiyaclarını nəzərə alan nəticə əldə etməyə çağırış etdik, çünki onlar iqlim dəyişmələrinin ağır yükünü daşıyırlar və ekzistensial təhlükə ilə üzləşirlər. Həmçinin müstəmləkə idarəçiliyi ilə daha da ağırlaşan ekoloji problemlərdən əziyyət çəkən xalqlar və regionlar ilə həmrəylik nümayiş etdirdik.

Azərbaycanın COP29-a ev sahibliyi etməsi ölkəmiz üçün tarixi bir dönüş nöqtəsi oldu. İqlim diplomatiyasında nümunəvi bir model ortaya qoydu. Bu tədbir həm Azərbaycanın ekoloji siyasətinin gücünü göstərdi, qlobal problemlərin həllində liderliyə iddialı olduğunu sübut etdi. Azərbaycan qısa zaman çərçivəsində mükəmməl təşkilatçılıq nümayiş etdirərək, iştirakçılardan yüksək təqdir və məmnunluq qiyməti aldı. Bakı COP tədbiri möhtəşəm təşkil olunması ilə, iştirakçılar üçün yaratdığı müasir infrastruktur və rahatlıqla da yadda qaldı.

İki həftə davam edən tədbirdə mühüm tarixi nəticələr əldə edildi. Bu nailiyyətlər çoxtərəfli iqlim fəaliyyətində ən mürəkkəb və mübahisəli vəzifələri yerinə yetirmək üçün Azərbaycanın COP29 Sədrliyinin aylarla davam edən intensiv diplomatiyasının nəticəsi, 200-ə yaxın ölkədən dəstək almaq böyük şərəf, dünyanın inam və etibarının təsdiqi, həm də beynəlxalq ictimaiyyətin Azərbaycanda görülən işlərə, o cümlədən "yaşıl enerji" sahəsində qazandığımız uğurlara verilən yüksək dəyərin və hörmətin ifadəsi idi. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan dünya miqyasında dinamik inkişaf edən ölkələr sırasında avanqard yerlərdən birini tutur.

Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən strategiya hazırkı dinamik inkişafın əsaslarını təşkil edir. Azərbaycanın iqtisadi inkişafına, sosial-siyasi sabitliyə, beynəlxalq müstəvidə nüfuzuna və mövqeyinə görə güclü, qüdrətli bir dövlətə çevrildiyi dünya birliyində də etiraf olunur. Bu konfrans Azərbaycanın qlobal çağırışlara cavab verən bir lider olduğunu bütün dünyaya sübut etdi. Rəsmi Bakının COP29-u uğurla keçirməsi ölkənin təşkilatçılıq qabiliyyətini nümayiş etdirdi, eyni zamanda onu qlobal səviyyədə bir dialoq mərkəzinə çevirdi. "Əl-Cəzirə", BBC, "The Guardian", CNN və "Reuters" kimi dünyanın aparıcı media qurumlarının Bakıdan birbaşa reportajlar hazırlaması Azərbaycanın beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olduğunun göstəricisidir. Əksər ekspertlər hesab edir ki, belə bir tədbirin Bakıda keçirilməsi ölkənin regiondakı təsirini daha da gücləndirir, Azərbaycan, təkcə Cənubi Qafqazda deyil, həm də Avropa və Asiyanın enerji təhlükəsizliyində mühüm rol oynayan bir ölkə kimi tanınır.

Konfrans zamanı qəbul edilən qərarlar qlobal iqlim dəyişmələri ilə mübarizədə yeni yol xəritəsini müəyyən etdi. Azərbaycan isə bu qərarların formalaşdırılmasında mühüm rol oynadı. Xüsusilə Azərbaycanın bərpaolunan enerji mənbələrinə keçid strategiyaları və regionda "yaşıl iqtisadiyyat"ın inkişaf etdirilməsi üzrə layihələri beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirildi. Ölkənin xarici siyasətindəki balanslı yanaşma, həm Şərq, həm də Qərb dövlətləri ilə əməkdaşlıq etməsi bu uğurun əsasını təşkil edir. Azərbaycan artıq yalnız neft və qaz ixracatçısı deyil, həm də alternativ enerji mənbələrinə əsaslanan "yaşıl enerji" təşəbbüsləri ilə diqqət çəkir. Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan "yeni enerji" strategiyası Xəzər hövzəsində külək və günəş enerjisinin inkişafını hədəfləyir. COP29 isə Azərbaycanın təkcə enerji sahəsində deyil, həm də beynəlxalq dialoq və əməkdaşlıqda aparıcı rola malik olduğunu təsdiq etdi. Ölkədaxili iqlim siyasətlərini daha da gücləndirmək üçün bir motivasiya yaratdı. Hökumət bu tədbirin nəticələrini nəzərə alaraq, "yaşıl texnologiya"ların tətbiqi, karbon emissiyalarının azaldılması və ekoloji maarifləndirmə sahələrində daha çox təşəbbüslər həyata keçirmək niyyətindədir. COP29 Azərbaycanın ekoloji və iqtisadi siyasətində dərin iz buraxdı. Ölkəmiz üçün bu tədbir qlobal məsuliyyətin bir hissəsi olmaqla, həm də gələcək nəsillər üçün dayanıqlı bir dünya yaratmaq məqsədinə doğru mühüm bir addımdır.

Azərbaycanın paytaxtı Bakı təkcə coğrafi mövqeyinə görə deyil, həm də multikulturalizm və qonaqpərvərlik ənənələrinə görə belə bir tədbir üçün ideal məkan oldu. Şəhər fərqli mədəniyyətlərin qovuşduğu bir körpü rolunu oynayaraq, iştirakçılar üçün komfort və təhlükəsizlik təmin etdi. BMT-nin baş katibi Antonio Quterreşin və başqa ölkə liderlərinin Bakının təşkilatçılıq qabiliyyətini və Azərbaycanın qlobal dialoqdakı rolunu yüksək qiymətləndirməsi bu tədbirin nə qədər mükəmməl keçdiyini bir daha göstərdi. Konfrans Azərbaycanın beynəlxalq siyasətdəki liderlik mövqeyini daha da möhkəmləndirdi.

**Mustafa KAMAL,**
**"Respublika".**